# Zəfərin mübarək, AZƏRBAYCAN!

***“Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm”. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin xalqımızın heç zaman unutmayacağı bu şad xəbəri vermәsindən bir il ötür. Düz bir il keçir o tarixi hadisədən, o müqəddəs, möhtəşəm andan… Düz bir ildir ki, o günün, o hadisənin möhtəşəmliyini, ehtişamını, sevincini, qürurunu doya-doya, içimizə, ruhumuza çəkə-çəkə yaşayırıq…***



*İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!*

**Prezident İlham Əliyevin Şuşanın azad edilməsi ilə əlaqədar Azərbaycan xalqına müraciətindən**

Bir ildir ki, 28 il 6 aylıq Şuşasızlıq həsrətimizə son qoyuldu, yanan, alovlanan, cadar-cadar, kösöv olan qəlblərimizə, ürəklərimizə su səpildi… Həsrətimizə, nisgilimizə son qoydu, odlanan qəlblərimizə su səpdi öz qanları, öz canları ilə igid, qəhrəman, ürəkləri Vətən, Qarabağ, Şuşa eşqilə döyünən oğullarımız, Vətən sevdalılarımız…

1992-ci il mayın 8-də işğal edilən Şuşamız düz 28 il 6 ay sonra – 8 noyabr 2020-ci il tarixində azad olundu. Vətən sevdalısı oğullarımızın – minlərlə şəhidimizin, qəhrəman qazimizin, igid əsgərimizin sayəsində azad oldu Ana Vətən!

Dişləri, dırnaqları ilə torpaqlarımızı murdar erməni caynağından qoparan, azad edən oğullarımız bununla, həm də dünya hərb tarixində yeniliyə imza atdılar… Elə bir imza atdılar ki, bundan hələ çox öyrəniləcək hələ çox danışılacaq…

Bəli, düz bir il öncə, 8 noyabr tarixində nəinki şuşalı, bütövlükdə, dağlı-aranlı qarabağlı, vahid azərbaycanlı olduq! Həmin gün artıq düşmənin beli tam qırıldı, qarşımızda diz çökdürüldü.

Tarixi İkinci Vətən müharibəsi iki gün sonra, 10 noyabrda Qələbə ilə başa çatsa da, Şuşa Zəfəri müharibənin, 32 illik qanlı münaqişənin taleyini həll etdi. Və heç də təsadüfi deyil ki, Zəfər Günümüz 10 noyabr tarixi ilə deyil, 2020-cil 8 noyabr tarixi ilə təqvimdə öz yerini tapdı, müzəffər Ali Baş Komandanımızın mübarək imzası ilə rəsmiləşdirildi.

Zəfərimizin baş memarı, əsas müəllifi olan qalib sərkərdəmiz, ölkə Prezidenti cənab İlham Əliyev məhz həmin günü, 8 noyabrı Azərbaycanın “Zəfər Günü” elan etdi. Bəli, bir ildir ki, dilbər guşəmiz – Şuşamız, digər işğal altındakı torpaqlarımız bizdədir, öz əzəli, qanuni, hüquqi sahibindədir.

Bizik şuşalı, dağlı-aranlı qarabağlı, vahid azərbaycanlı. Biz olmuşuq, bizik Şuşanın, Qarabağın, 86, 6 kvadratkilometrlik Azərbaycanın sahibi, yiyəsi! Bizimdir Şuşa, bizimdir Qarabağ, bizimdir gözəlim Azərbaycan!

Bir daha kimsəyə imkan verməri̇k və verməyəcəyik ki, bu torpaqlara murdar ayaqlarını bassın, bu torpaqlara yiyələnməyə, sahiblənməyə cəhd etsin. Bizim olan bizimdir və bizim də olacaq!

Bəli, bu gün Azərbaycanımızın hər bir guşəsində, hər bir kəs “Zəfər Günü” ilə yaşayır, bu günlə nəfəs alır, ürəyi bu möhtəşəm anla döyünür.

İllər, əsrlər, qərinələr keçəcək, ancaq 8 noyabr tarixdə daim qızıl hərflərlə və əbədi qalacaq. Hər kəs onunla yaşayacaq, qürurlanacaq! Qürurun, Zəfərin, Zəfər Günün mübarək, Azərbaycanım!

Möhtərəm Prezidentimiz İlham Əliyevin “Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında” 3 dekabr 2020-ci il tarixli sərəncamında qeyd edilir: “44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan qəsəbəsi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi”.

Vətən müharibəsində rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtulması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Prezident İlham Əliyev xalqa müraciətində ordu quruculuğunun daim diqqət mərkəzində saxlanıldığını bildirdi. Son 17 il ərzində – tarixi Qələbə qazandığımız günə qədər dövlət başçımız işinin əsas hissəsini ordu quruculuğuna həsr etmişdir. Qarşıya qoyulan prioritet vəzifə ordumuzu gücləndirmək, ən müasir silahlarla təchiz etməkdən ibarət idi. Təbii ki, bu da asan məsələ deyildi. Bundan ötrü güclü iqtisadiyyat tələb olunurdu. Eyni zamanda, o silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir, həm də diplomatik, siyasi səylər göstərilməli idi və biz dövlət başçımızın sayəsində buna nail olduq. Azərbaycan Ordusu döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Ötən 17 ildə ölkəmizin müdafiə sisteminin möhkəmləndirilməsi, Silahlı Qüvvələrdə aparılan islahatlar və bunun nəticəsi olaraq baş verən keyfiyyət dəyişiklikləri müzəffər Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğundakı davamlı işinin nəticəsidir.

Bu gün Azərbaycan öz hərbi təchizatını bir çox ölkələrdən təmin edir. Eyni zamanda, möhtərəm Prezidentimizin təşəbbüsü ilə Azərbaycanda müdafiə sənayesi yaradıldı. Biz ordumuzun tələbatını xeyli dərəcədə daxili istehsal hesabına təmin edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir, o cümlədən ən müasir silahlar. Ordu quruculuğu, hərbçilərin maddi-məişət problemlərinin həlli, təqaüdə çıxmış hərbçilərin məişət problemlərinin dövlət tərəfindən həll olunması, onlara mənzillərin verilməsi, hərbçilərimizin iş şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılır.

Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin gərgin fəaliyyəti sayəsində, demək olar ki, bütün hərbi şəhərciklərimiz, hərbi bazalarımız yenidən quruldu və bu gün onların hər biri ən yüksək standartlara cavab verir. Qürurverici haldır ki, hərbçilərimizin döyüş qabiliyyəti də artdı. Bu müddət ərzində Azadlıq meydanında dəfələrlə keçirilmiş hərbi paradlar ölkəmizin gücünü, hərbi qüdrətini bütün dünyaya nümayiş etdirdi.

Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Silahlı Qüvvələrimiz müasir silahlardan, texnikadan istifadə edərək düşmənin texnikasını məhv etdi. Vətənin azadlığı yolunda canından keçməyə hazır olduğunu nümayiş etdirən hərbçilərimiz sinəsini qabağa verərək, heç nədən qorxmadan-çəkinmədən, bir əlində bayraq, bir əlində isə silah tutaraq düşməni torpaqlarımızdan qovdu, qaçıb canını qurtara bilməyənləri isə məhv etdi.

Təsadüfi deyil ki, Azərbaycan Ordusu hərb tarixində yeni döyüş taktikalarının müəllifi kimi tanınıb. Bəzi aparıcı Qərb mətbu orqanlarında, habelə ABŞ-ın Milli Müharibə Kollecinin və Seton Hall Universitetinin Diplomatiya və Beynəlxalq Münasibətlər Məktəbinin analitik nəşrlərində Azərbaycan Ordusunun hərbi taktikası öyrənilərkən belə qənaətə gəlinib ki, bizim qarşımızda hətta güclü bir ölkə olsaydı belə, onun da heç bir şansı olmayacaqdı. Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir. II Qarabağ müharibəsi zamanı istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur və müvafiq ali hərbi məktəblərin dərsliklərinə salınaraq öyrənilir. ABŞ Hərbi Akademiyası və Pentaqonun rəsmiləri Azərbaycan Ordusunun hərbi əməliyyatlarının öyrənilməsi zərurətini qeyd edirlər…

Şuşanın alınması zamanı hərbçilərimizin göstərdikləri qeyri-adi peşəkarlıq, dünya hərb tarixində yeni olan hərbi taktika bu gün böyük maraqla öyrənilir. Məhz bu ordunun gücü, qüdrəti sayəsində torpaqlarımız azad oldu.

Bir il öncə – noyabrın 8-də müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin Şuşanın işğaldan azad edilməsi ilə bağlı Şəhidlər xiyabanından Azərbaycan xalqına etdiyi tarixi müraciətində də deyildiyi kimi:

“Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”

***Jalə ƏLİYEVA,***
***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini, filologiya elmləri doktoru, professor***